## AZƏRBAYCAN DİLİNDƏ

### Kitabları

### 1960

**Məmmədəliyev, Yusif Heydər oğlu.** Azərbaycanda elmin inkişafı [Mətn]: Azərbaycan Kommunist Partiyasının və Azərbaycanda Sovet hakimiyyəti yaradılmasının 40-cı ildönümünə həsr edilir /Y. H. Məmmədəliyev ; [red. Z. Məmmədov].- Bakı: Azərnəşr, 1960.- 120, [2] s.

*Akademik Y.Məmmədəliyev bu kitabında XI əsrdən başlayaraq, Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi misilsiz töhfələri qeyd edərək yazırdı: "Maddi mədəniyyət abidələri və ədəbi mənbələr Azərbaycanda təbii və humanitar elmlərin, riyaziyyat, astronomiya, təbabət, fəlsəfə, filologiya və s. elmlərin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Azərbaycan xalqı öz sıralarından saysız-hesabsız görkəmli alim və mütəfəkkirlər dəstəsinin irəliləməsinə nail olmuşdur".*

*Həmin kitabda o, ədəbiyyatşünaslıq, genetika, astrologiya, şərqşünaslıq kimi öz ixtisasından xeyli uzaq olan Azərbaycan elminin iyirmidən artıq sahəsinin inkişaf perspektivlərini göstərmişdir. Yusif Məmmədəliyev həyatının son illərində neftin tarixi və mənşəyi haqqında əsərlər üzərində çalışır və bu barədə öz fərziyyələrini irəli sürürdü. Bu məsələlər, xüsusən, neftin bioloji fəallığı ilə bağlı olan təfsilatlar alimi çox düşündürürdü. Hələ 1946-cı ildə o, ilk dəfə naftalanın fəaliyyət göstərən başlanğıc kimyəvi tərkibini müəyyən edir və öz xüsusiyyətinə görə, heyrətamiz olan müalicəvi neftin biokimyəvi mexanizmi haqqında fərziyyələr irəli sürürdü. Naftalanın insan orqanizminə spesifik və universal təsirini araşdırmağa çalışırdı.*[1]

### 1936

**Məmmədəliyev, Yusif Heydər oğlu.** Azərbaycanın təbii qazları və onlardan kimyəvi istifadə /Y. H. Məmmədəliyev.- Bakı: Azərneftnəşr, 1936.- 37 s.

[1] Qasımov, Əbülfəz Cəbrayıl oğlu. Akademik Yusif Məmmədəliyev //Şərqin qapısı Naxçıvan diyarı : sosial-iqtisadi oçerk / Ə. C. Qasımov ; red.: N. Q. Cəfərov, M. Z. Nağısoylu, Q. M. Əliyev. - Bakı : Azərbaycan nəşriyyatı, 2006.– C. 1.– S.167 -179 .